GÜNAY TALIBOVA
*Bakı Dövlət Universiteti*

# ŞAH TƏHMASIB DÖVRÜNDƏ SƏFƏVI - OSMANLI MÜNASIBƏTLƏRI

XVI əsrin 30-cu illərindən başlayaraq, Osmanlı imperiyasının Şərq siyasəti daha qlobal xarakter almağa başladı. Bu hər şeydən əvvəl Avropadan Hindistana dəniz yolunun kəşfi və Portuqaliyanın Hind okeanı hövzəsində möhkəmlənməsinin Osmanlı imperiyasının iqtisadi mənafeyinə vurduğu ağır zərbə ilə əlaqədar idi. Bu kəşflər nəticəsində Aralıq və Qara dənizin beynəlxalq ticarətdəki əvvəlki mövqeyi zəifləmiş və bununla da Osmanlı işğalları öz əhəmiyyətini itirməyə başlamışdı. Bu dövrdə Osmanlı imperiyasını maraqlandıran başlıca məhsul-Azərbaycan ipəyi Avropaya artıq Hörmüz vasitəsilə yəni okean yolu ilə aparılırdı. Belə ki, Osmanlı imperiyası ilə münasibətləri kəskin olan Səfəvi dövləti Avropa ölkələri ilə ticarət əlaqələrini əsasən Volqa – Xəzər yolu və Hörmüz vasitəsilə həyata keçirirdi.

Beləliklə Osmanlı imperiyasının XVI əsrin 30-cu illərində Asiya ilə əlaqədar hərbi planı Səfəvi dövlətini aradan qaldırmaqla İran körfəzi və Xəzər dövlətənizi hövzəsini öz nəzarəti altına almaq və bununla da xam ipək problemini birdəfəlik həll etməklə Avropa – Şərq ticarətində vasitəçiliyi tamamilə öz əlinə almaq idi (5, s. 170-171). Bu planı həyata keçirmək məqsədilə 1520-ci ildə taxta çıxan Sultan Süleyman (1520-1566) əvvəlcə Avropada yaranmış əlverişli beynəlxalq şəraitdən(bu dövrdə Qərbi Avropanın başı İtaliya müharibələri (1494-1559) və Reformasiya hərəkatına qarışmışdı) istifadə edərək, geniş hərbi əməliyyatlara başladı və 1521-ci ildə Belqradı, 1522-ci ildə Rodosu və 1526-ci ildə isə Macarıstanı məğlub edərək, Budanı ələ keçirməklə Mərkəzi və Qərbi Avropa ölkələrini Şərqlə əlaqələndirən məşhur İstanbul yolunun mühüm hissəsi tutduqdan və 1533-cü ildə isə Avstriya və Polşa ilə "əbədi sülh" bağladıqdan sonra 1533-cü il oktyabrın 21-də Səfəvi dövlətinə qarşı hərbi əməliyyat kompaniyasına başladı. Müharibədə əsas məqsəd Bağdad daxil olmaqla ərəb İraqını ələ keçirmək və İran körfəzinə yol açmaq və bundan sonra hərbi əməliyyatı davam edib, Səfəvi dövlətini qəti məğlubiyyətə uğratmaq idi. Müharibənin başlanmasına isə sərhəd münaqişəsi bəhanə oldu. 1524- cü il mayın 23 - də Şah İsmayılın ölmündən sonra isə Səfəvi dövlətində hakimiyyətə onun azyaşlı oğlu Təhmasib (1524-1576) gəlmişdi.

1534-cü ilin yayında Sultan Süleyman böyük ordu ilə Azərbaycana yürüşə başladı. Osmanlı ordusu iyulun 13-də Səfəvilərin paytaxtı Təbrizə daxil oldular və şəhərdə işğalçılıq və zorakılığa başladılar. Yürüş barədə məlumat alan Şah Təhmasib, qardaşı Sam Mirzəni Heratda qoyub, Xorasandan hərəkət etdi və Reyə çatdı. 7 min nəfərlik şah qoşunu bu uzun yolu qısa müddətdə qət etdikləri üçün gücdən düşmüşdülər. Reydən şah əvvəl Qəzvinə, sonra isə Əbhərə hərəkət etdi və burada o, qarşıdakı toqquşma haqqında fikirlərini öyrənmək üçün əmirlərin müşavirəsini çağırdı. Müşavirədə hər bir əmir Sultan Süleymanın yürüşü və ona qarşı görüləsi tədbirlər barədə öz fikirlərini söylədi. Nəticədə şah sultanla döyüşə girməməyi qərara aldı. Artıq 1534-cü il sentyarbın 28-də Sultan Süleymanının başçılıq etdiyi əsas osmanlı qüvvələri Təbrizə daxil oldu. Sultan qoşununa dinclik vermək üçün bir həftə Təbrizdə qaldı. 1534-cü il oktyabrın 5-də Şah Təhmasiblə qarşılaşmaq üçün osmanlı qoşunu Sultaniyyə istiqamətində yürüşü davam etdirdi. Oktyabrın 13-də Sultaniyyə şəhəri alındı. Səfəvi hərbi qüvvələrini təqib edən Sultan Süleyman 1534-cü il oktyabrın 29-da Həmədanı, noyabrın 15-də isə Qəsri-Şirini ələ keçirdi ( 11, s.13-14). Lakin Osmanlı sultanı Səfəvi hökmdarını açıq döyüşə cəlb edə bilmədi.Qışın yaxınlaşması, güclü qarın yağması və şaxtaların düşməsi ilə əla-

qədar olaraq, Osmanlı ordusu azuqə çatışmamazlığı və şaxtalar nəticəsində çoxlu itkilər verdi. Beləliklə Sultan Süleyman İran ərazisində hərbi əməliyyatlara son verib, Bağdad üzərinə yeridi. Qoşunun hərəkəti və cəbbəxananın daşınması çətinləşdiyindən 100-ə qədər top arabası yandırıldı, toplar isə səfəvilərin əlinə keçməməsi üçün torpağa basdırıldı. 1534-cü il noyabrın 28-də Bağdad alındı və sultan qışlamaq üçün burada qalaraq, Üləma bəyi isə Azərbaycana vali təyin edərək Təbrizə göndərdi (1, s.151; 5, s. 173). Sultan Süleymanın Bağdadda olduğunu əsirlərdən öyrənən Şah Təhmasib hərəkət edib Osmanlıların işğal etdiyi Səfəvi torpaqlarını tutdu və 1534-cü il dekabrın 9-da isə Təbriz yenidən Səfəvilərin əlinə keçdi (8, s. 151). Bu zaman Üləma bəy qaçıb Van qalasına sığındı. Şah Təhmasib Van qalasını mühasirəyə aldı və bu mühasirə qışın sonunadək uzandı. Qışı Bağdadda keçirən Sultan Süleyman isə 1535-ci il aprelin 1-də yenidən-ikinci dəfə Azərbaycana Təbriz istiqamətində yürüş etdi. Osmanlı qoşunlarının Bağdaddan hərəkətə başlamasından xəbər tutan Şah Təhmasib Van qalasının mühasirəsindən əl çəkib, geri döndü. Şah Təhmasib bu dəfə də sultanla açıq döyüşə girməməyi qərara almışdı və bu məqsədlə də o, əvvəlcədən Təbriz əhalisini İraqa və Farsa köçürmüş, şəhəri tamamilə boşaltmışdı. Şah həmçinin hərbi taktika işlədərək, Osmanlı ordusunun Azərbaycan ərazisində irəliləməsinin qarşısını almaq məqsədilə əvvəlcədən bütün suvarma kanallarını və kəhrizləri torpaqla doldurtmuş, əkin sahələri və taxılları yandırtmışdı. Bütün bu tədbirləri gördükdən sonra isə Şah Təhmasib Sultaniyyəyə çəkilmişdi (2, s. 74).

1535-cü il iyunun 21-də Şah Təhmasib Sarıqamışa Sultan Süleymanın hərbi qərargahına Taclı Xanı elçi göndərib sultana barışıq təklif edir. Lakin Osmanlı sultanı bu təklifi rədd edib, yürüşü davam etdirərək, iyunun 24-də Marağanı, iyunun 30-da isə Təbrizi ələ keçirir (7, s. 155). On beş gün Təbrizdə qalan sultan şahın ordusu ilə birgə Sultaniyyədə olduğunu öyrəndikdən sonra onu təqib etmək qərarına gəlir və iyulun 20-də Sultaniyyə istiqamətində hücuma keçir. Avqustun 3-də Osmanlı sultanının artıq Sultaniyyəyə çatdığını öyrənən Şah Təhmasib yenidən elçilərini göndərib, sultana barışıq təklif edir (7, s.155-156). Şah sultana "Səfəvilərin güc qaynağı olan Azərbaycanın" Təbrizlə birgə geri qaytarılması şərti ilə Bağdad da daxil olmaqla ərəb İraqını osmanlılara verəcəyini vəd edir (5, s. 174; 8, s. 152- 153). Lakin Osmanlı sultanı bu təklifi rədd edir. Belə olduqda səfəvi qoşunları İsfahan istiqamətində geri çəkilirlər. Ordusunun ərzaqla təchizi çətinləşmiş və döyüş nizamı pozulmuş olması səbəbi ilə bu dəfə də sultan Səfəvi qoşunlarını təqib edə bilmir və avqustun 7-də öz qoşunlarına geri çəkilmək əmri verir. Beləliklə avqustun 20-də Təbrizə çatan osmanlı ordusu, artıq avqustun 27- də geriyə İstanbul istiqamətində hərəkətə başlayırlar (11, s. 15). Türk ordusu geri çəkilən kimi Şah Təhmasibin hərbi qüvvələri yenidən işğal olunmuş bütün Səfəvi ərazilərini, Van və Ərçiş qalalarını ələ keçirdilər.

Bu müharibə bütövlükdə Osmanlı imperiyası üçün uğusuz oldu. Şah Təhmasibin seçdiyi düzgün hərbi taktika nəticəsində Osmanlı imperiyası Səfəvi ordusu və səfəvilərin dövlət müstəqilliyini aradan qaldıra bilmədi. Osmanlı imperiyası isə canlı qüvvə və hərbi texnika cəhətdən ağır tələfat verdi. Bundan başqa bu dövrdə Osmanlı imperiyasının özünün bütün hərbi qüvvələrini Səfəvi dövlətinə qarşı yönəltməsindən istifadə edən Avropa dövlətləri Türkiyəyə qarşı bəzi hərbi uğurlar qazanmışdılar. Belə ki, 1535-ci il may-iyul aylarında Almaniya imperatoru V Karl bəzi Avropa dövlətlərinin də iştirak etdiyi bir "səlibçi" qoşunla Şimali Afrikaya hücum edib, bu zaman Osmanlıların əlində olan Tunisi ələ keçirmişdi, yaranmış əlverişli vəziyyətdən istifadə etmək istəyən Venesiya və Papalıq da 1538 –ci ildə ittifaqa girərik, Türkiyə ilə müharibəyə başladılar. 1540-cı ildə isə Osmanlı imperiyası ilə Avstriya arasında Macarıstan üstündə yenidən müharibə (1540-1547) başlandı. Lakin bu müharibələr Osmanlı imperiyasının qələbəsi

ilə sona yetdi. Beləliklə 1547-ci il iyunun 19-da Ədirnədə Osmanlı imperiyası ilə Avstriya-Almaniya bloku arasında sülh imzalandı. Beş il müddətinə imzalanan bu sülhə sonradan Papalıq, Fransa və Venesiya da qoşuldu və bu müqaviləyə görə dövlətlərdən heç biri digərinə hücum etməməli idi (5, s. 177). Beləliklə Ədirnə sülhü ilə Avropa cəbhəsində təhlükəsizliyi təmin edən Osmanlı imperiyası bütün diqqətini Şərqə-Səfəvi dövləti üzərinə yönəltdi. Bu dövrdə Osmanlı imperiyasının başının Avropadakı müharibələrə qarışmasından istifadə edən Səfəvi dövləti isə nəinki öz qüvvələrini yenidən bərpa edə bilmiş, hətta Şirvanşahlar dövlətinin varlığına son qoyaraq, onun ərazisini öz ərazinə qatmışdı (10, s. 265 – 267). Bu isə Cənubi Qafqaz ərazisi ilə, o cümlədən Şirvanla əlaqədar işğalçılıq planlarına malik olan Osmanlı imperiyasını çox narazı salmışdı.

Osmanlı imperiyasının Səfəvi dövləti üzərinə növbəti-üçüncü yürüşünün təhrikçisi isə Şah Təhmasibin qardaşı Əlqas Mirzə olmuşdur. Beləliklə Əlqas Mirzənin guya onlar İraqa daxil olan kimi bütün qızılbaşların şahdan üz döndərib, onların tərəfinə keçəcəyi barədə verdiyi yalnış vədlər nəticəsində Sultan Süleyman 1548-ci il martın 29-da Osmanlı imperiyasının tabeliyində olan bütün ölkələrdən- Macarıstan, Bosniya, Serbiya, Hələb, Suriya, Misir,Yəmən və s. topladığı böyük ordu ilə Azərbaycana yürüş etdi. Böyük türk ordusuna qarşı çıxmaq üçün kifayət qədər qoşunu olmayan Şah Təhmasib Təbrizi tərk edərək, Şəmbi-Qazana çəkildi və burada üç ay müddətində ordu topladı. Bundan başqa qızılbaşlar türk ordusunun hərəkətini çətinləşdirmək üçün Osmanlı sərhədindən Təbrizə qədər olan ərazidə "bir toxum, ot saplağı" belə saxlamadılar, bütün ərzaq ehtiyatlarını məhv etdilər, daşınmaz əmlaka isə od vurdular. Təbriz əhalisi isə su mənbələrini, suvarma kanallarını bağladı, kəhrizləri doldurdular (2, s. 82). Sultan Süleyman Azərbaycana yürüşə Ərzurum-Xoy- Təbriz yolu başladı. Üləma bəy və Əlqas Mirzə də sultan ordusunu müşayiət edirdilər. Beləliklə 1548-ci il iyulun 21-də Xoy, iyulun 27-də Təbriz Osmanlı qoşunlarının əlinə keçdi (5, s. 178). Lakin türk ordusu bu dəfə də Təbrizdə qala bilmədi. Belə ki, ərzaq qıtlığı nəticəsində əsgərlərin şəhərlilərin şəxsi əmlakını qarət etməyə başlaması sakinləri işğalçılara qarşı üsyan qaldırdı. Belə ağır vəziyyət Osmanlı qoşunlarının Təbrizdə qalmasını qeyri-mümkün etmişdi. Cəmi 4 gün Təbrizdə qalan Sultan geri Vana çəkildi və 1548-ci il avqustun 25-də Van qalası ələ keçirildi. Lakin qışın yaxınlaşması ilə əlaqədar olaraq, Sultan İskəndər Paşanı Vanda qoyub, özü isə əsas hərbi qüvvələri ilə Diyarbəkrə döndü (2, s. 83; 5, s. 178). 1548-1549-cu illər Səfəvi-Osmanlı müharibəsi nəticəsində yalnız Van qalasını ələ keçirə bilən Sultan Süleyman 1549-cu il oktyabrın 5-də Diyarbəkrdən İstanbula döndü. Osmanlı ordusu geri çəkildikdən sonra Şah Təhmasib işğal olunmuş Səfəvi torpaqlarını yenidən ələ keçirdi.

Yalnız XVI əsrin II yarısının başlanğıcında - Səfəvilər dövlətinin daxili problemləri-1549- ci ildə Dərbəndilər sülaləsindən olan Bürhan Mirzənin qiyamının yatırılması (1550) və 1551-ci ildə Şəki müstəqilliyinin ləğv olunaraq, ərazisinin Səfəvilər dövlətinin tərkibinə qatılmasından sonra Şah Təhmasib Osmanlı imperiyasına qarşı müdafiədən fəal hücum mövqeyinə keçdi.(1,s. 165) Belə ki, 1548- ci ildə Vanın osmanlılar tərəfindən tutulmasından sonra bura hakim təyin olunmuş İskəndər Paşanın 1548-1549 cu ilin qışında Xoy üzərinə yürüş edərək, buranı yağmalaması və 1549-cu ilin yazında onun yenidən Vandan Çuxursəəd (İrəvan) vilayəti üzərinə hücum edərək, şəhər bazarını yandırması Şah Təhmasibin Osmanlı ərazilərinə hücumu üçün bəhanə olmuşdur. Şah Təhmasib 1552-ci ilin yayında qoşunların toplanması haqqında əmr verib, toplanan ordunu isə 4 hissəyə bölünüb, 4 istiqamətdə göndərir: 1.Ərçiş və Bərkiri. 2.Pasin. 3.Ərəb İraqı. 4.Dəbil. Bu hərbi əməliyyatın məqsədi Osmanlı Türkiyəsinin sərhəd ərazilərini dağıtmaqla və hərbi qənimət ələ keçirməklə, Osmanlı ordusunu yeni basqına gələrkən bu ərazidən gəlib-keçməsini çətinləşdirmək idi. Şah Təhmasib özü şəxsən bu hərbi yü-

rüşlərdə iştirak etmişdir. Beləliklə həyata keçirilən yürüşlər zamanı Ahlat (Əhlət) qalası dağıdılmış, Van, Bidlis,Vostan, Adilcəvaz, Ərçiş, Muş və Pasin bölgələri də qarət olunmuşdu (3, s. 387). 1553-cü ilin baharında Şah Təhmasib Naxçıvana qayıdaraq, Əmir Şəmsəddin Dilcanini sülh danışıqları aparmaq üçün sultan sarayına yollamışdı. Lakin Osmanlı sultanının bu təklifə etinasız yanaşması nəticəsində şah oğlu İsmayıl Mirzəni yenidən Kürdüstan ərazisinə hücuma yollamış və Van, Vostan, Ərçiş və Adilcəvazı qarət edən qızılbaşlar, böyük qənimətlərlə Naxçıvana şah qərargahına qayıtmışlar (4, s. 145). Bütün bu hadisələrdən sonra Osmanlı sultanı Sultan Süleyman 1554-cü ilin aprelin 9-da böyük ordu ilə Azərbaycana dördüncü yürüşünə başladı. 1554-cü ilin mayında Diyarbəkrdə öz hərbi hazırlıqlarını başa çatdıran Osmanlı qoşunları Səfəvi sərhədlərini keçdilər. Şah Təhmasib isə bu dəfə də öz döyüş taktikasına sadiq qalaraq, hərbi qüvvə və sayca qızılbaşlardan üstün olan düşmənin əsas qüvvələri ilə toqquşmadan çəkinib, sultan qoşunlarının hərəkət edəcəyi gözlənilən yollara viranedici həmlələr edərək, otlaqları, tarlaları məhv edib, əhalini isə köçürmüşdü. Bundan sonra şah Naxçıvandan çıxaraq, Bazarçay yaylaqlarına tərəf çəkilmişdir.

Beləliklə Sultan Süleyman 1554-cü il iyulun 5-də Qarsa yetişdi. İyulun 18-də İrəvan, 26-da Qarabağ, 28-də isə Naxçıvan osmanlılar tərəfindən ələ keçirildi (5, s. 181). Lakin Sultan Süleyman Naxçıvanda çox qala bilmədi, bunun əsas səbəbi qoşun üçün yaşayış vəsaiti, ərzaq və hərbi sursatın çatışmaması idi. Odur ki, Sultan 1554- cü il iyulun 30-da şəhəri tərk edərək, onun yandırılması haqqında göstəriş verdi (6, s. 85). Azərbaycanı işğal etmək cəhdlərinin nəticə vermədiyindən əmin olan Sultan Süleyman Səfəvilərlə sülh danışıqlarının başlanamasına razı olur. O, hələ Naxçıvandan geri qayıdarkən bu barədə baş vəzir Məhəmməd Paşaya göstərişlər vermişdi. (2,s. 91). Onu da qeyd etmək lazımdır ki, türk ədəbiyyatında Səfəvi dövləti ilə Osmanlı imperiyası arasıda sülh danışıqlarının başlanması səbəbi müxtəlif cür izah olunmuşdur. Məsələn F.Sümer öz əsərində danışıqların başlanma səbəbinin izahını "Şah Təhmasibin Amasiyada qışlayan Sultan Süleymanın yazda yenidən Təbriz və Səfəvilər üçün xüsusi əhəmiyyəti olan Ərdəbil üzərinə yenidən yürüş edəcəyini öyrənməsi ilə sülh danışıqlarını gücləndirməsi nəticəsində sülh bağlanmışdır " kimi vermişdir (9, s. 68). Digər bir türk müəllifi F.Kırzıoğlu isə sülhün bağlanması səbəbini bu cür izah edir: "1548-ci il yürüşündən də öncədən Təbriz başda olmaqla, artıq "qızılbaşlığın" Azərbaycanda və İran-İraqında yayılması ilə əvvəllər məzhəb birliyi səbəbində Osmanlıları müdafiə edən sərhəd bölgələrinin artıq olmaması Sultan Süleymanı Şah Təhmasibin sülh təklifini qəbul etməyə yanaşdırmışdır."( 7, s. 231).

Beləliklə Osmanlılarla danışıqları aparmaq üçün iki elçi heyəti - əvvəlcə Qacar tayfasının ağsaqqalı Şahqulu bəy, az sonra isə eşikağası Fərruxzad bəy sultanın yanına göndərildi. Bu zaman Sultan Süleyman qışlamaq üçün Amasiyada olduğundan danışıqlar orada aparılmış və sülh müqaviləsi də orada imzandığına görə bu sülh "Amasiya sülhü" adlanır. Mənbələrdə Çaldıran vuruşmasından sonra Şah İsmayılla Sultan Səlim arasında barışığa dair hər hansı məlumatın olmamasına baxmayaraq, bəzi əsərlərdə guya 1515-ci ildə onlar arasında sülh imzalanması barədə yalnış məlumatlar vardır (6, s. 69; 10, s. 241). Əslində isə 1555-ci il mayın 29-da bağlanmış Amasiya sülhü Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında imzalanmış ilk rəsmi sülh müqaviləsidir (2, s. 92; 7, s. 244). 1514-cü ildən başlayaraq fasilələrlə 1554-cü ilə qədər davam etmiş Səfəvi-Osmanlı müharibələrinin nəticəsi olan Amasiya sülhünün şərtlərinə görə,Qərbi Gürcüstan vilayətləri (İmeretiya, Menqreliya və Quriya) Osmanlı Türkiyəsinin təsir dairəsinə, Şərqi Gürcüstan vilayətləri (Mesxiya, Kartliya və Kaxetiya) isə Səfəvi dövlətinin hakimiyyəti altına həmçinin, ermənilər yaşayan torpaqların qərbi Osmanlıların, şərqi isə qızılbaşların nüfuzuna keçir və Arpaçay iki dövlət arasında şimal sərhədini təşkil edir. Bun-

dan başqa Qars iki dövlət arasında bitərəf zona elan olunaraq dağıdılır (2, s. 92; 4, s. 151; 9, s. 68). 1555-ci il ilk Səfəvi-Osmanlı sülh müqaviləsi olan Amasiya sülhünün imzalanması ilə təxminən yarıməsrlik gərgin siyasi münasibətlərdə hər iki ölkə üçün zəruri olan sakitlik dövrü başlandı. Lakin qeyd etmək lazımdır ki, bu sakitlik dövrü yalnız Şah Təhmasibin hakimiyyətinin sonuna qədər davam etdi. Hətta 1559-cu ilin sonunda baş vermiş bir hadisə az qala bu vəziyyəti kökündən dəyişəcək və yeni Səfəvi-Osmanlı müharibəsinə səbəb olacaqdı. Belə bir təhlükənin yaranmasına səbəb isə Osmanlı torpağından qaçan şahzadə Sultan Bəyazid idi. Belə ki, məlum olduğu kimi, Sultan Süleymanın beş oğlu var idi. Birinci oğlu Məhəmməd 1542-ci ildə vəfat etmiş, ikinci oğlu Mustafa qətlə yetirilmiş, üçüncü şahzadə Cahangir isə erkən yaşlarında intihar etmişdi. Sultan Süleymanın dördüncü oğlu Sultan Bəyazid əvvəllər Kütahiyyada, sonradan isə Ankarada və Amasiyada, beşinci oğlu Sultan Səlim Konya vilayətində və Bursada hakimlik edirdi. Lakin bundan narazı olan Sultan Bəyazid tez-tez atasına məktub yazaraq, öz şikayətlərini bildirirdi. Belə vəziyyət sonda Sultan Bəyazidlə Sultan Səlim arasında döyüşün baş verməsinə səbəb oldu. 1559-cu ilin iyununda Konya yaxınlığında baş verən döyüşdə qardaşı Sultan Səlim tərəfindən məğlub edilən Sultan Bəyazid çarəsiz qalaraq oğlanları eləcə də, on iki minlik dəstəsi ilə birgə sərhədi keçərək Səfəvi dövlətinə üz tutur. Onu da qeyd etmək lazımdır ki, Sultan Bəyazid Osmanlı torpağından çıxmazdan əvvəl sığınacaq barədə Şah Təhmasibə məktub yazaraq, onun razılığını almışdı. Beləliklə 1559-cu il oktyabrın 24-də Sultan Bəyazid öz dəstəsi ilə paytaxt Qəzvinə (Şah Təhmasib 1555-ci ildə paytaxtı Təbrizdən Qəzvinə köçürmüşdü) daxil oldu. Lakin Sultan Bəyazidin fərar xəbərini eşidən Sultan Süleyman dərhal Ərdahan sancaqbəyi Sənan bəyi Səfəvi sarayına yollayaraq, oğlunun orada olmasının sülhün pozulmasına səbəb ola biləcəyi ehtimalını işarə edərək Şah Təhmasibdən onun geri qaytarılmasını xahiş edir. Şah Sultan Bəyazidi hələlik Osmanlı sarayına göndərə bilməyəcəyini bildirir (4, s. 156). Onu da qeyd etmək lazımdır ki, bu dövrdə Səfəvi sarayında gizlənmiş Sultan Bəyazid dəfələrlə Şah Təhmasibə Osmanlı imperiyasına qarşı birgə yürüş təşkil etməyi təklif etmişdir. Lakin 1555-ci il sülhünə ciddi əməl etməyi qərara almış şah Sultan Bəyazidin planın əsla tərəfdar olmamışdır, hətta Səfəvi hökmdarı Sultan Bəyazidi və onun qoşununu iki ildən çox öz yanında saxlamışdı, Sultan Süleyman və Sultan Səlimin bir-birinin ardınca yolladıqları məktublarında Sultan Bəyazid əhvalatının iki ölkə arasında müharibəyə səbəb olacağını bildirmələrinə baxmayaraq, Şah Təhmasib yolladığı cavab məktublarında şahzadənin tutduğu əməlindən peşiman olduğunu və onun əfv edilməsini xahiş edirdi (4, s. 158). Bu arada Şah Təhmasibi öz planlarına inandırıb, onu sülhü pozmağa təkid edə bilməyən Sultan Bəyazid daha qəti tədbirlərə əl ataraq, ona qarşı sui-qəsd təşkil etmək istəyir. Lakin onun bu planı baş tutmur və şahın əmri ilə Sultan Bəyazid həbs edilir (4, s. 159). Bundan sonra Türkiyə ilə yeni hərbi münaqişədən də ehtiyat edən Şah Təhmasib 1562-ci ildə Sultan Bəyazid və onun dörd oğlunu sultan nümayəndələrinin sərancamına verdi. Onlar elə oradaca Sultan Səlimin etibarlı adamı Əli ağa tərəfindən qətlə yetirilir və cənazələri isə Türkiyəyə aparılır. Beləliklə Amasiya sülhünü böyük təhlükə altına ala biləcək şahzadə Sultan Bəyazidin Səfəvi dövlətinə qaçması ilə əlaqədar olan 1559-1562-ci illər hadisəsinə son qoyuldu və bundan sonra hər iki ölkə arasında sülh əhval-ruhiyyəsi bərpa olundu.

## *ƏDƏBIYYAT*

1.Azərbaycan tarixi. 7 cilddə, III cild. Bakı, 1999
2.Əfəndiyev O. Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı,2007
3.Əliyarlı S. Azərbaycan tarixi . Bakı, 1996
4.Fərzəlibəyli Ş.F.Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlərdə).Bakı, 1999

5.Mahmudov Y. M. Azərbaycan diplomatiyası. Bakı, 1996
6.Məmmədova Ş.K. Xülasət ət-təvarix Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991
7.Kırzıoğlu F. M. Osmanlıların Qafqaz ellerini fethi. Ankara, 1976
8.Öztuna Yılmaz T. Başlanğicindan zamanimiza kadar Türkiye tarihi. VI cild İstanbul, 1964
9.Sümer Faruk. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü. Ankara, 1976
10.Петрушевский И. П. Азербайджан в XVI - XVII вв. - Сборник статей по истории Азербайджана, вып. I. Баку, 1949
11.Печеви, Ибрахим Эфенди. История (Извлечения по истории Азербайджана и сопредельных стран и областей периода 1520-1640 гг.). Пер. с турецк. и прим. акад. З. М. Буниятова . Баку , 1988

**ТАЛЫБОВА Г.Х.**

## СЕФЕВИДО - ОСМАНСКИЕ ОТНОШЕНИЯ В ПЕРИОД ШАХА ТАХМАСИБА

В начале XVI века во время возникновения и усиления Азербайджанского Сефевидского государства, Османская империя, оккупировавшая территорию Южного Кавказа, в том числе и Азербайджана, укрепляясь в бассейне Каспийского моря и Персидского залив, вошла в политическое противоречия. Это стало причиной многочисленных войн в этот период. Сефевидо-османские отношения в период правления шаха Тахмасиба оставались напряженными. Однако, подписанный в период правления Тахмасиба Амасийский договор, был самым стабильным договором, дважды обновлявшийся, он оставался в силе до 1576 года.

**TALIBOVA G. KH.**

## IN THE SHAH TAHMASIB TIME THE RELATIONS OF SEFEVID AND OTTOMAN

In the beginning of XVI century arising and strengthening of the Azerbaijan Sefevid state, was against to the politics of Ottoman empire with occupying territory of Southern Caucasus including Azerbaijan and to become strong in the basins of the Caspian Sea and Persian Gulf. It had been cause happening wars repeatedly between the sides. Sefevid - Ottaman relations were remained strained in Tahmasib time. But the Amasiya was the stablest contract registered in the time of Tahmasib , it twice updated and had stayed on the strength till 1576.

***Rəyçilər: t.e.n.Y.H.Gözəlova, t.e.d.S.A.Məmmədov.***

***BDU-nun Tarix fakültəsi Qədim dünya və orta əsrlər tarixi kafedrasının 19 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***